# Həyat bilgisindən dərs nümunəsi

**Gülşən TAĞIYEVA,**
*Bakı şəhər Rafiq Nəsrəddinov adına 39 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

*Fənn* - Həyat bilgisi
*Sinif* - IV
*Mövzu:* İslam dini necə yarandı?
*Standart:*
3.2.1. Tanıdığı qəhrəmanların nümunəsində mənəvi keyfiyyətləri izah edir;
3.3.1. İslam dininin böyük şəxsiyyətlərini tanıyır;
3.3.2.İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.
*Məqsəd:*
1.Din haqqında məlumat verir;
2.İslam dininin böyük şəxsiyyətlərinin adlarını sadalayır və onları təsvir edir;
3.İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir;
4.İslam dininin böyük şəxsiyyətlərinin həyatı nümunəsində mənəvi keyfiyyətləri izah edir;
5.Azərbaycan cəmiyyətində digər xalqların və dinlərin nümayəndələrinə münasibəti sadə şəkildə izah edir.
*İnteqrasiya:* Azərbaycan dili, riyaziyyat, təsviri incəsənət, informatika.
*İş formaları:* bütün siniflə iş, kiçik qruplarla iş.
*İş üsulları:* Beyin həmləsi, problemli situasiya.
*Resurslar:* Dərslik, elektron dərs vəsaiti, iş vərəqləri, dəftərxana ləvazimatı.
*Motivasiya:* Motivasiya yaratmaq məqsədi ilə dini mövzuda slaydlar nümayiş etdirir və göstərilən təsvirlərlə bağlı suallar verirəm:

M.: - Təqdim olunmuş şəkilləri birləşdirən nədir?

Ş.: - Bu şəkilləri bir-biri ilə birləşdirən dindir.

M.: -Din nədir? Və o nə üçün mövcuddur?

Ş.: - Din insanları hiss üzvləri ilə dərk edilən dünyagerçəkliyi arxasında daha əhəmiyyətli gerçəkliklə bağlayan yoldur. Bu yol insanlara gözəl əxlaq sahibi olmağı, yaxşılıq etməyi, pislikdən çəkinməyi öyrədən Allah yoludur, Allah sevgisinə qovuşduran yoldur.

M.: -Dinin əsasını nə təşkil edir?

Ş.:-Dinin əsasını iman təşkil edir.

M.: -Bəs imanın mənbəyi nədir?

Ş.:-İmanın mənbəyi ilahi vəhydir. Müqəddəs kitabdır. Yəhudiliyin (Tövrat), xristianlığın (İncil) və İslamın (Quran) müqəddəs kitabları səmavi kitablardır, Allah tərəfindən nazil edilmişdir.

*Tədqiqat sualı:* -Səmavi dinlərin sonuncusu hansıdır?

Əvvəlcə şagirdlərə dünyadakı dinlər haqqında məlumat verilir. Qeyd edilir ki, Səmavi dinlərin sonuncusu İslam dinidir.

Sonra sual-cavab aparılır:

M.: - İslam dini haqqında nə bilirik? İslam dini nə zaman təşəkkül tapmağa başlamışdır?

Ş.: - İslam dini səmavi dinlərin sonuncusu sayılır. Bu din VII əsrin əvvəllərində təşəkkül tapmağa başlamışdır.

M.: - İslam dininin peyğəmbəri kimdir?

Ş.: - Məhəmməd peyğəmbərdir.

M.: - İslam dini insanları nəyə səsləyir?

Ş.: - İslam dini insanları həmişə dürüst olmağa, yalan danışmamağa, həsəd və kindən uzaq olmağa, daim biliyini artırmağa səsləyir.



M.: - İslam dini özündən əvvəl yaranmış dinlərdən nə ilə fərqlənir?

Ş.: - Həzrəti Məhəmmədin gətirdiyi din özündən əvvəlki dinlərdən fərqli olaraq müvəqqəti dövr üçün deyil, dünyanın sonuna qədər nəzərdə tutulmuşdur.

“Biz indiyə kimi söylədiklərimizdən nəyi anladıq” deyə sinfə müraciət edirəm. Şagirdlər cavab verirlər ki, dinimiz İslam, kitabımız Quran, peyğəmbərimiz Məhəmməd əleyhissəlamdır. Dinimiz insanı yaxşı əməllərə səsləyən, sülhü, barışı təbliğ edən bir dindir.

Sonra Məhəmməd peyğəmbərin həyat və fəaliyyəti haqqında məlumat verilir. Cizgi filmi izlənilir.

Yenə sual-cavab aparılır.

M.: - İslamdan əvvəl Məkkə camaatı nəyə sitayiş edirdi?

Ş.: - İslamdan əvvəl məkkəlilər bütlərə sitayiş edirdilər.

M.: - Peyğəmbərimiz buna necə baxırdı?

Ş.: - Peyğəmbərimiz bütlərə sitayişi mənasız sayır və küfr hesab edirdi.

M.: - Məhəmməd peyğəmbər harada ibadət etməyi sevərdi?

Ş.: - O, hər il Ramazan ayında Hirə mağarasına gedər və orada ibadət edərdi. Elə peyğəmbərlik də ona bu mağarada verilmişdir.

M.: - İslam dininin müqəddəs kitabı necə adlanır?

Ş.: - İslam dininin müqəddəs kitabı Qurani-Kərimdir.

M.: - İslam dininin müqəddəs kitabı Qurani-Kərim necə nazil olmuşdur?

Ş.: - Quran Ramazan ayında qədir gecəsi deyilən bir gecədə nazil olmuşdur.

Sonra sinfə “Qurani-Kərim” haqqında kim məlumat verə bilər” sualı ilə müraciət olunur. Şagirdlər cavab verirlər ki, “Qurani-Kərim” İslam dininin müqəddəs və ən əsas kitabıdır. İslam dinində Quran Allahın buyurduğu sözlərdir. Onları mələyi vasitəsilə həzrəti Məhəmmədə vəhy eləyib. Quranın özünəməxsus adı olan 114 surəsi və 6236 ayəsi var.

Quran peyğəmbərin vəfatından sonra kitab şəklini almış və yeddi nüsxə köçürülərək biri Mədinədə saxlanılmış, digərləri isə böyük şəhərlərə Küfə, Bəsrə, Yəmən, Dəməşq və Bəhreynə göndərilmişdir.

Quran qırx min cüyür dərisi üzərində yazılmışdır. Zəmanəmizə 3 nüsxəsi gəlib çatmışdır. I Londonda, II Özbəkistanda, III isə Pakistanda saxlanılır.

M.: - Peyğəmbərimiz neçə il Məkkədə İslam dinini təbliğ edib?

Ş.: - Peyğəmbərimiz Məkkədə 13 il İslam dinini təbliğ edib.

M.: - Məhəmməd peyğəmbər nə üçün Məkkədən Mədinəyə köç etdi?

Ş.: - Peyğəmbərimiz təqiblərdən yaxa qurtarmaq üçün Mədinəyə köç etməli olub.

Köç təsvir edilir. Cizgi filmi izlənilir.

Sonra yenidən sual-cavab aparılır.

M.: - O, peyğəmbərliyi dövründə hansı işləri görə bildi?

Ş.: - Bu müddət ərzində peyğəmbərimiz Allahın əmrini yerinə yetirmək, müsəlmanlığı təbliğ eləmək, insanları səadətə qovuşdurmaq üçün dayanmadan çalışdı.

M.: - Peyğəmbərimiz nə zaman vəfat edib?

Ş.: - 632-ci ildə 63 yaşında vəfat edib.

M.: - İslam dininin hansı əsas şərtləri var?

Ş.: - İslam dininin 5 əsas şərti var.
- Kəlmeyi-şəhadət.
- Namaz.
- Oruc.
- Zəkat.
- Həcc ziyarəti. Hərəsi haqqında ayrıca məlumat verilir.

M.: -Bəzi müsəlman ölkələrində hansı təqvimdən istifadə edilir?

Ş.: - Hicri-qəməri təqvimindən istifadə olunur və bu da Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köçdüyü ilindən, yəni 622-ci ildən hesablanır.

M.: - İslam dininin hansı bayramları var?

Ş.: - İslam dinində Qurban bayramı, Ramazan bayramı var. Bəzi əlamətdar günlər də bayram kimi qeyd olunur. Məbəs bayramı - Məhəmməd peyğəmbərə peyğəmbərlik verilməsi günü, Mövlud bayramı - peyğəmbərin doğum həftəsi kimi verilir.

M.: - Bəs Azərbaycanda İslam dini nə zaman yayılıb?

Ş.: - 630-cu ildə İraq və İranın fəth edilməsi ilə İslam ordularının Azərbaycana girməsi üçün yollar açıldı. Ərdəbil və Təbriz alındı. 640-cı ildə Beyləqan, sonra Bərdə, Şirvan, 644-cü ildə Muğan, 645-ci ildə Aran fəth edildi. 656-661-ci illərdə Azərbaycan əhalisinin əksəriyyəti İslamı qəbul etmişdi.

M.: - Bəs dinimizin rəmzi dövlətimizin rəmzində özünü necə göstərir?

Ş.: - Dinimizin rəmzi bayrağımızın yaşıl rəngində özünü əks etdirir.

M.: - Azərbaycanlılar İslamdan əvvəl hansı dinə inanırdılar?

Ş.: - İslamdan əvvəl azərbaycanlılar Zərdüşt dininə inanırdılar və oda sitayiş edirdilər.

Şagirdlər Zərdüşt dininin əsas müddəasının bir-biri ilə mübarizə aparan iki qüvvənin, yəni xeyir və şərin olduğunu söyləyirlər.

Nizami Gəncəvinin “Xeyir və şər” hekayəsinə həsr edilmiş cizgi fimindən bir parça izləyərək fikir bildirirlər.

Zərdüşt dininə sitayiş edənlər həyatın əsasının od, su, hava, torpaq olduğuna inanırdılar. Bu da günümüzə qədər Novruz bayramı adət-ənənələrində gəlib çıxıb.

“Müxtəlif dövrlərdə yaşamış dahi şəxsiyyətlərin Allaha inamı özünü necə göstərir” sualına şagirdlər cavab verirlər ki, ümummilli liderimiz Heydər Əliyev “Din milli və mənəvi sərvətimizdir” demişdir. Onlar habelə böyük şairlərimiz N.Gəncəvi və M.Füzulinin əsərlərindən nümunələr göstərirlər.

*Tədqiqatın aparılması:* Dərsliyin 42-43-cü səhifələrindəki mətn oxunur və təhlil edilir.

Qruplarda aşağıdakı suallar ətrafında tədqiqat işi aparılır.

1. Məhəmməd peyğəmbər bütün tərəfdarlarına necə yanaşırdı? Mətndən nümunə göstərin.

- Tərəfdarlarına yanaşması.

- Ardıcıllarına tövsiyəsi.

2. Məhəmməd peyğəmbərin hansı mənəvi keyfiyyətlərini özündə görmək istərdin?

3. İslam dininin digər dinlərlə oxşar və fərqli cəhətlərini yazın.

4. İslam dini insanlara nəyi öyrədir?

*İnformasiya mübadiləsi və müzakirəsi:*

Tədqiqatlar təqdim olunur, təqdim olunan işlərin təhlili aparılır. Nəticə çıxarılır və ümumiləşdirmə aparılır.

*Yaradıcı tətbiqetmə:*

Dərsin bu mərhələsində şagirdlər Məhəmməd peyğəmbərin müdrik kəlamlarından bir neçəsini dəftərlərinə yazırlar.

*Qiymətləndirmə:* Müvafiq cədvəl üzrə qiymətləndirmə aparılır.

*Ev tapşırığı:*

Məhəmməd peyğəmbər haqqında bildiklərinizi yazın.

Dərsin sonunda Məhəmməd peyğəmbərin Türkiyə Dövlət Muzeyində saxlanılan əşyalarına həsr olunmuş slayd nümayiş etdirilir.